# NƏSİMİ: ŞƏRQİN XIV ƏSR POEZİYA ZİRVƏSİ

**2019-cu ilin ən böyük ədəbi hadisəsi, şübhəsiz, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubleyinin keçirilməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu münasibətlə imzaladığı sərəncamın icrası il boyu bir-birindən maraqlı tədbirlərlə davam etməkdədir. Göyçay rayonunda da silsilə tədbirlər keçirilir.**

Nəsimi ilk təhsilini Şamaxıda almış, dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astranomiyanı öyrənmişdir. X əsrdə Bağdadda dara çəkilmiş Həllac Mənsur Hüseyninin sufi görüşlərini təbliğ edən Nəsimi ilk şeirlərini də Hüseyni təxəllüsü ilə yazmışdır. Nəsimi XIV əsrin sonlarında Azərbaycanda geniş yayılmış hürufi təşkilatları ilə əlaqə saxlamışdır. Hürufiliyin banisi Fəzlullah Nəiminin görüşlərini mənimsəyərək, bu təriqətin fikirlərini təbliğ edən şeirlər yazmağa başlamış və bu vaxtdan etibarən Nəiminin təxəllüsü ilə həmahəng səslənən Nəsimi təxəllüsünü qəbul etmişdir.




Nəsimi mürəkkəb yaradıcılıq yolu keçmişdir. O, yaradıcılığına aşiqanə şeirlərlə başlamış, sonralar dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazmış, Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəlin banisi olmuşdur. Gənclik illərində yazdığı əsərlər içərisində insani məhəbbət, insan gözəlliyinin tərənnümü xüsusi yer tutur. Həmin şeirlərdə şairin sevgilisi dünyanı işıqlandıran ayla, günəşlə müqayisə olunur, ayın da, günəşin də insan gözəlliyindən nur aldığı poetik dillə təsvir edilir. Nəsmini həm məhəbbət, həm də didaktik-tərbiyəvi mövzulu şeirlərində acgözlük, paxıllıq, xudpəsəndlik, riyakarlıq, vəfasızlıq kimi yaramaz sifətləri qətiyyətlə pisləmişdir. O, həyat, cəmiyyət haqqında açıq deyilməsi qorxulu olan tənqidi fikirlərini aşiqanə misralar və ya təbiət təsvirləri içərisində söyləmişdir.

Nəsiminin lirikasında insana məhəbbət, insan şəxsiyyətinin azadlığı mövzusu başlıca yer tutur. Mütəfəkkir şair "qiblə" adlandırdığı insanı alçaldan, azadlığını buxovlayan feodal-dini əsarət əleyhinə alovlu etiraz səsini qaldırırdı. Nəsimi insanı yaradıcı bir varlıq kimi ucaldır, hətta "məndə sığar iki cahan, mən bu cahana sığmazam" deyə onu daha da ucaldırdı. Lakin insanı ilahiləşdirən mütəfəkkir onu göylərə qaldırmır, əksinə Allahı konkret insan obrazında təsvir edirdi. Şairin lirik "mən"i elə bir poetik aləmdir ki, bütün kainatın sirləri onda gizlənmişdir; o, əzəli və əbədidir, dünyada müxtəlif şəkillərdə təzahür edir. İnsan zəkasının varlığın sirlərini açmağa qadir olduğuna dərin inam bəsləyən Nəsimi şeirlərində insanı özünü, beləliklə də həqiqəti dərk etməyə çağırırdı.

Nəsiminin bədii yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələdir. Şairin dili olduqca zəngin və orijinaldır. O, canlı xalq danışıq dilinin imkanlarından bacarıqla istifadə etməklə yanaşı, klassik şeir dilinin çox yayılmış bədii ifadələrini də məharətlə işlətmiş, ərəb, fars şeirinə xas obrazları uğurla tərcümə edərək doğmalaşdırmışdır. Bu mənada Nəsiminin dili müasiri olduğu ərəb və fars şairlərinin dilindən daha dolğundur. Nəsimi yaradıcılığı XV əsrdən etibarən bütün türkdilli ədəbiyyata qüvvətli təsir göstərmişdir.

25 may 2019-cu il tarixdə Əli Kərim adına Göyçay şəhər parkında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Nəsimi dünyası" adlı ədəbi bədii tədbir təşkil olunmuşdur.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə, Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədri Anar Rzayev, filologiya elmləri doktoru, professor, şair-publisist Vüqar Əhməd, akademik, Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli, Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı jurnalist Rəşad Məcid, Azərbaycan Yazıçılar Birliyinin üzvü respublikanın əməkdar müəllimi, tarix elmləri üzrə fəlsəfə doktoru Pərviz Yəhyalı və rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, ziyalılar iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə Göyçay şəhərinin mərkəzində yerləşən Rəsul Rzanın ev muzeyini ziyarət etmişlər. Nəsimiyə çoxlu məqalələr, şeirlər həsr edənlərin arasında göyçaylı xalq şairi Rəsul Rza da mühüm yer tutur.




Ev-muzeyi ilə tanışlıqdan sonra Əli Kərim adına Göyçay şəhər parkında rayon Mərkəzi Kitabxanasının Nəsiminin əsərlərindən ibarət kitab sərgisi təşkil olunmuşdur.

Rayon rəhbərliyi və qonaqlar Əli Kərimin və başqa göyçaylı ədiblərin məzarlarını, Şəhidlər Xiyabanını, fəxri vətəndaşların məzarını, Soyqırım abidəsini ziyarət edirək məzarlarının və abidənin önünə gül dəstələri düzmüşlər.

Sonra Əli Kərim adına parkda "Əbədiyaşar ədiblər" kompleksinin qarşısında davam edən tədbirdə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə çıxış edərək bildirdi ki, İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalıb və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirib.

Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir. 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirildiyini və Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq 2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edildiyini qeyd etdi.

Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədri Anar Rzayev, filologiya elmləri doktoru, professor, şair-publisist Vüqar Əhməd, akademik, Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli, Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı jurnalist Rəşad Məcid, Azərbaycan Yazıçılar Birliyinin üzvü respublikanın əməkdar müəllimi, tarix elmləri üzrə fəlsəfə doktoru Pərviz Yəhyalı çıxış edərək bildirdilər ki, "Prezident İlham Əliyev tərəfindən qısa müddətdə Nəsimi ilə bağlı iki Sərəncamın imzalanması mühüm hadisədir. Bu sərəncamlarla Nəsiminin 650 illik yubileyinin keçirilməsi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi artıq müstəqillik şəraitində insanlarda Nəsimi ideyaları əsasında azərbaycançılıq təfəkkürünün inkişaf etdirilməsi, bu böyük sənətkarın dünyaya tanıdılması baxımından özünəməxsus əhəmiyyət kəsb etdiyini vurğuladılar.



Sonda rayon icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədri Anara xatirə hədiyyəsi təqdim edildi, Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, filologiya elmləri doktoru, professor, şair-publisist Vüqar Əhməd, Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı jurnalist Rəşad Məcid tanınmış jurnalist, "Könül dünyamız" verlişinin aparıcısı Səyyarə Səyyaf xatirə döş nişanları ilə təltif olundular.

**Tədbir muğam ifaları və Nəsiminin şeirlərinin səslənməsi ilə davam edib.**

**Tural Eminov**

ədalət.-2019.-28 may.-S.4.